**Təhsil Nazirliyi SABAH qrupları və "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin təşkilatçılığı ilə "SABAH" VI Tələbə Debat Forumu keçirilib. Tədbirdə "SABAH" qrupları layihəsi və "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin rəhbərliyi, Milli Debat Proqramının nümayəndələri və SABAH tələbələri iştirak edib.**



# SABAH VI Tələbə Debat Forumu keçirilib

## Bakı Dövlət Universitetinin "Justice League" komandası Forumun qalibi olub

Forumun əsas məqsədi "SABAH" tələbələrinin müxtəlif debat mövzuları üzrə biliklərinin artırılması, natiqlik, sərbəst tədqiqat və təqdimat bacarıqlarının inkişafı, tədrisdənkənar fəaliyyətlərinin səmərəliliyinin təmini, onlarda intellektual oyunlara və ünsiyyətin genişlənməsinə maraq yaradılmasıdır.

Forumda müzakirələr "Dövlətlərin qlobal su böhranının həlli istiqamətində atdığı addımlar özünü doğruldur" mövzusu ətrafında aparılıb. Forumun qrup və "play-off" mərhələsində ümumilikdə 7 universiteti təmsil edən 20 komanda iştirak edib. Debat raundlarından uğurla keçən "Xarı bülbül" (İsmət Qəribov, Fatimə Şirinova, Azər Həndəmov) və "Justice League" (Kübra Həşimova, Cahan İsmayılova, Selcan Mehdizadə) komandaları finala vəsiqə qazanıblar. Tələbələrdən Ülvi Məlikzadə, Fatimə Şirinova, Ləman Sultanlı, İsmət Qəribov, Şəhla Çələbiyeva, Kübra Həşimova, Rəhim Abbasov, Sənubər Hüseynli, Azər Həndəmov, Selcan Mehdizadə "Forumun ən yaxşı natiqləri" adına layiq görülüblər.

Forumun builki qalibi Bakı Dövlət Universitetinin SABAH qruplarının tələbələrindən ibarət "Justice League" komandası, ən yaxşı 1-ci natiqi isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının SABAH tələbəsi Ülvi Məlikzadə olub.

Qeyd edək ki, "SABAH" qrupları Təhsil Nazirliyinin təşəbbüsü ilə dövlət ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə savadlı, bacarıqlı, hazırlıqlı tələbələrdən ibarət qruplardır. Layihənin məqsədi ali təhsil sistemində tədrisin keyfiyyətinin yüksəldilməsi, yenilikçi mühitin yaradılması və qlobal kadr bazarının tələblərinə cavab verən savadlı və peşəkar mütəxəssislərin yetişdirilməsidir.

"Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi yerli və beynəlxalq biznes strukturları, dövlət qurumları, eləcə də beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Onun Milli Debat Proqramının məqsədi gənclərin maariflənməsi və intellektual gənclər şəbəkəsinin yaradılmasıdır. Proqram respublikanın 45 rayonunu və bütün böyük şəhərləri əhatə etməklə, 13 regional debat mərkəzini, ali və orta təhsil müəssisələrində yaradılmış debat klublarını özündə birləşdirir.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 888 **Sifariş** 32

**Məsul növbətçi:** O.Mustafayev